

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 164 (21.574)

2 sentyabr 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakıda keçirilən 42-ci Ümumdünya Şahmat Olimpiadasında mübarizə aparacaq Azərbaycan yığma komandalarının üzvləri ilə görüşü olub.

Azərbaycan Prezidenti görüşdə çıxış edib.

* * *

Bakıda, Milli Gimnastika Arenasında 42-ci Ümumdünya Şahmat Olimpiadasının təntənəli açılış mərasimi keçirilib.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri, Dünya Şahmat Federasiyasının (FIDE) prezidenti Kirsan İlyumjinov və təşkilatın digər nümayəndələri, şahmat üzrə dünya çempionları, dövlət və hökumət rəsmiləri iştirak ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Şahdəniz-2" layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib.



## Daxili işlər orqanları növbəti payız-qış mövsümünü də uğurla başa vuracaq

### Mövsümə hazırlıqla bağlı görülən işlər belə deməyə əsas verir

*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində 2016-2017-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirəni daxili işlər naziri, general-leytenant Əhməd Əhmədov açıb. Bildirib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Ali Məclisin Sədri Daxili İşlər Nazirliyinə də müvafiq tapşırıqlar verib.*



Nazir ötən payız-qış mövsümündə görülən işlər barədə məlumat verərək bildirib ki, muxtar respublikada elektrik enerjisindən və qazdan sayğacdankənar istifadə hallarının qarşısının alınması məqsədilə reydlər keçirilib. Yoxlamalar zamanı 84 fakt aşkar edilib, elektrik enerjisinə görə 26 min 960 manat, təbii qaza görə 22 min 470 manat olmaqla, ümumilikdə, 49 min 430 manat məbləğində cərimə tətbiq edilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əməkdaşları ilə birlikdə qazanxanalarda işləyən mövsümi işçilərin təlimatlandırılması ilə bağlı maarifləndirici tədbirlər keçirilib. Muxtar respublikanın bitki və heyvanat aləminin qorunması ilə bağlı həyata keçirilən tədbirlər zamanı 5 fakt aşkar edilib, qanunsuz ovun qarşısı alınıb. Şəhərdaxili və şəhərlərarası xətdə işləyən 738 avtobus və mikroavtobusun texniki sazlığı yoxlanılıb.

Qeyd olunub ki, yol hərəkəti təhlükəsizliyini intensiv təşkil etmək, sürüşmələrin və yol-nəqliyyat hadisələrinin qarşısını almaq üçün tədbirlər görülüb. Həyata keçirilən belə tədbirlər hesabına Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası, daxili işlər orqanları 2015-2016-cı ilin payız-qış mövsümündə heç bir problemlə üzləşməyiblər.

Bildirilib ki, 2016-2017-ci ilin payız-qış mövsümünə hazırlıq çərçivəsində yuxarıda qeyd olunan tədbirlər təkrarən həyata keçiriləcək, texniki cəhətdən nasaz avtomobillərin qış aylarında hərəkətinə məhdudiyyətlər qoyulacaq, belə avtomobillərin aşkarlanması üçün reydlər təşkil ediləcək. Nazirliyin struktur qurumlarının inzibati binasının qazanxanalarında elektrik enerjisi, təbii qaz və su təchizatı sahəsində çatışmazlıqlar aradan qaldırılacaq. Buz bağlama ehtimalı daha çox olan yollarda qum tədarükü görüləcək. Qış aylarında sürüşmə ehtimalı daha çox olan yollarda yol-patrul xidmətlərinin sayı artırılacaq, avtomobil yollarının qar və buzdan təmizlənməsində iştirak edəcək texnikanın sayı müəyyənləşdiriləcək və onların texniki sazlığını təmin etmək üçün Nəqliyyat Nazirliyi ilə birgə tədbirlər həyata keçiriləcək. İdarə, müəssisə və təşkilatlarda gözətçi funksiyasını həyata keçirən əməkdaşlara mütəmadi nəzarət olunacaq, yolların kənarlarında, yaşayış məntəqələrində, meşə zolaqlarında qurumuş ağacların kəsilib hərbi hissələrə verilməsi işinə nəzarət artırılacaq, ağacların qanunsuz kəsilməsinin, qanunsuz ov edilməsinin qarşısı alınacaq.

Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasında da bir sıra işlər görüldüyünü diqqətə çatdıran Əhməd Əhmədov bildirib ki, hərbi hissədə yaşayış binalarının və məddi-məişət obyektlərinin işıq, su, istilik, kanalizasiya sistemlərinin təmiri işləri aparılıb. Elektrik təsərrüfatının istismar vəziyyəti yoxlanılıb, elektrik xətləri qış mövsümündə yüklənməyə tam hazırlanıb, yanğınsöndürmə vasitələri qış mövsümünə uyğun olaraq təchiz olunub, onların saxlanma yerləri müəyyən edilib, yanğın sututarlarına və hidrantlara giriş-çıxış yolları təmir edilib. Qazanxanalarda cari təmir işləri aparılıb, istilik qazanxanaları, magistral istilik və su xətləri istismara tam hazır vəziyyətə gətirilib, qazanxanaların istisması üçün ocaqçılar seçilib, onlar qazanxanalarda işləmək üçün vəsiqə ilə təmin ediliblər. Qış mövsümündə ərazilərin qardan təmizlənməsi üçün lazımi alətlər hazırlanıb. Hərbi hissədə qış mövsümündə ərzaq təminatı üçün 3 aylıq ərzaq məhsulları və 18 ton meyvə qurusu tədarük edilib. Şəxsi heyət üçün isti geyim formaları hazırlanıb. Buna baxmayaraq, hərbi hissədə bir sıra işlər də görülməlidir. Belə ki, qış mövsümü üçün tələb olunan ehtiyatın yaradılması diqqətdə saxlanılmalıdır. Xüsusilə də yerli ərzaq məhsullarının tədarük olunması, yanacaq ehtiyatının artırılması üçün əlavə tədbirlər görülməli, əsgərlərin qış aylarında virus xəstəliklərindən qorunması üçün dərman ehtiyatı yaradılmalıdır.

Diqqətə çatdırılıb ki, daxili işlər orqanlarında sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarından istifadə edilməməli və bu kimi cihazların digər idarə və təşkilatlarda istifadəsinin qarşısının alınması üçün reyd yoxlamaları keçirilməlidir. Qazanxanalara peşə məktəblərini bitirmiş şəxslər götürülməlidir.

Sonra nazirliyin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Əli Tağıyev çıxış edərək payız-qış mövsümünə hazırlıqla əlaqədar görülən və görüləcək işlər barədə məlumat verib.

## Payız-qış mövsümünə hazırlıq diqqət mərkəzindədir



***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən kollegiya iclasında 2016-2017-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə edilib.***

Səhiyyə naziri Niyazi Novruzov bildirib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə aid nazirliklər və təşkilatlara tapşırıqlar verilib. Verilən tapşırıqlarla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində tədbirlər planı hazırlanıb.

Kollegiya iclasında nazirliyin Maliyyə-iqtisadiyyat sektorunun baş mühasibi Asəf Musayevin məruzəsi dinlənilib, rayon mərkəzi xəstəxanalarının, dispanserlərin baş həkimləri çıxış ediblər. Qeyd olunub ki, 2016-2017-ci ilin payız-qış mövsümündə səhiyyə müəssisələrinin ahəngdar işini təmin etmək məqsədilə görüləcək işlər, onların icrası üçün dəqiq müddət və cavabdeh olan şəxslər müəyyənləşdirilib, qazanxanaların təhlükəsiz işləməsi üçün cavabdeh şəxslər təyin edilib.

Tədbirlər planına uyğun olaraq, Səhiyyə Nazirliyinə tabe olan tibb müəssisələrinin qazanxanalarında istilik sisteminin vəziyyəti yoxlanılıb, sistemdə olan nasazlıqların aradan qaldırılmasına başlanılıb. Müəyyənləşdirilib ki, cari qış mövsümündə 74 tibb müəssisəsi fərdi, 97 müəssisə mərkəzi istilik sistemi ilə, 42 müəssisə neft sobası, 10 müəssisə isə təbii qazla qızdırılacaqdır.

Tədbirlər planına uyğun olaraq, xəstəxanalarda elektrik xətlərinin, qaz, su təchizatı, kanalizasiya sistemlərinin, səhiyyə müəssisələrini fasiləsiz elektrik enerjisi ilə təmin edən transformatorların, fərdi istilik sistemi ilə qızdırılan səhiyyə müəssisələrində qızdırıcıların vəziyyəti yerindəcə yoxlanılaraq nasazlıqların aradan qaldırılmasına başlanılıb.

Xəstəxana binalarının və həkim ambulatoriyalarının dam örtüklərinin vəziyyəti yoxlanılıb, yararsız şiferlərin sayı müəyyənləşdirilib, yenilərinin alınması üçün sifarişlər verilib, ehtiyac olan qədər pəncərə şüşəsi və polietilen alınması nəzərdə tutulub. Tibb müəssisələrində olan təcili yardım maşınları texniki baxışdan keçirilib, təmirə ehtiyacı olan maşınların təmirinə başlanılıb.

Kollegiya iclasında ucqar dağ kəndlərində həkim ambulatoriyaları və feldşer-mama məntəqələrinin qışa hazırlıqla əlaqədar dərman təchizatının yaxşılaşdırılması, şəhər və rayon mərkəzlərində, o cümlədən qəsəbə və kəndlərdə əhaliyə keyfiyyətli xidmət göstərmək üçün alınacaq mal-materialların bölgü əsasında tibb müəssisələrinə paylanması üçün konkret vəzifələr müəyyənləşdirilib.

***Avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə verilən tapşırıqların icrası ilə bağlı nazirlikdə tədbir keçirilib.***



Tədbiri əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov açaraq bildirib ki, müşavirədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan bərpa müəssisələrinin, eləcə də Ahıllar evinin təminatının diqqət mərkəzində saxlanması, qazanxanalarda işləyən mövsümi işçilərin təlimatlandırılması üçün müvafiq tədbirlərin görülməsi və hərbi hissələr üçün yun corabların toxunması işinin bu il də davam etdirilməsi istiqamətində tapşırıqlar verilib.

Nazir çıxışında vurğulayıb ki, 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar verilmiş tapşırıqların icrası ilə bağlı tədbirlər həyata keçirilib. Belə ki, Ahıllar evinin və bərpa mərkəzlərinin təminatına diqqət artırılıb, hərbi hissələr üçün yun corab və yun şərf toxunulması məqsədilə sağlamlıq imkanları məhdud 26 şəxslə müqavilə bağlanılıb və onlar tərəfindən toxunmuş 2500 cüt yun corab və 500 yun şərf hərbi hissələrə təhvil verilib.

Qeyd olunub ki, Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxanaların istismarı üçün ixtisaslı kadrların hazırlanması məqsədilə təşkil olunan qazanxana maşinisti üzrə peşə kurslarını 222 nəfər bitirib. Bununla yanaşı, Fövqəladə Hallar Nazirliyi ilə birlikdə qazanxanalarda işləyən mövsümi işçilərin təlimatlandırılması məqsədilə muxtar respublikada fəaliyyət göstərən 242 müəssisənin 396 qazanxana işçisi üçün maarifləndirmə işi aparılıb.

Həmçinin sosial xidmət göstərilən 96 tənha şəxs qış mövsümündə ehtiyaclarına uyğun olaraq geyim, qaz pilətəsi, dam örtüyü, soba borusu və sair zəruri vasitələrlə təmin edilib.

Qeyd olunub ki, 2016-2017-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı tədbirlər planı hazırlanıb və aidiyyəti qurumların bu sahədə fəaliyyətləri müəyyənləşdirilib.

Sonra Dövlət Sosial Təminat Xidmətinin rəisi Murtuz Qasımov, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin rəisi Samir Seyidov, Dövlət Məşğulluq Xidmətinin rəisi Vüsal Süleymanlı payız-qış mövsümünə hazırlıqla bağlı məlumat veriblər.

**Xəbərlər şöbəsi**

# Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilir



*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində keçirilən müşavirəni rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov açıb.*

Bildirilib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə də bir sıra tapşırıqlar verilib.

Rövşən Məmmədov qeyd edib ki, Rabitə və Yeni Texnologiyalar Nazirliyi və onun tabeliyində olan müəssisələr üzrə payız-qış mövsümünə hazırlıqla bağlı hazırda qarşımızda heç bir maneə yoxdur. Nazirliyin anbarında hər zaman qəza halları üçün müxtəlif diametrli kabellərin hər birindən 2 kilometr olmaqla ehtiyat saxlanılır. Xüsusilə əsas magistral xətlərdə istifadə olunan optik kabellər, müxtəlif optik çeviricilər, muftalar və qəza zamanı istifadə olunan digər zəruri avadanlıqların daim anbarda olmasına xüsusi diqqət yetirilir. Mövsümdən asılı olmayaraq, istismar edilən bütün elektron qurğuların ehtiyat hissələrinin və bloklarının olması nəzarətdə saxlanılır. Belə ki, ehtiyatda saxlanılan mal-material tükənmədən əlavə hissələrin alınması təmin edilir.

Bildirilib ki, əsas diqqət yönəldilən işlərdən biri də avadanlıqların qorunmasıdır. Bu məqsədlə bütün mümkün imkanlardan səmərəli istifadə olunur. Belə ki, artıq bir neçə ildir birbaşa ümumi elektrik şəbəkəsindən qidalanan avadanlıqlar gərginliyin ani artıb-azalmasına qarşı həssas ayırıcı gərginlik releləri ilə təchiz olunub. Telefon kabellərinin abunəçilərə paylanma nöqtələrinə ildırım və elektrikdən qoruma sistemi olan abunəçi qutuları və paylama şkafları qoyulur. Eyni zamanda muxtar respublikada həyata keçirilən geniş abadlıq və quruculuq işlərinin tərkib hissəsi olan kənd mərkəzlərinin tikilməsi və avtomat telefon stansiyalarının stabil elektrik və istilik sistemi təmin edilmiş müasir binalara köçürülməsi sayəsində son illər avadanlıqların xüsusi hallar istisna olmaqla sıradan çıxmasının qarşısı alınıb.

Hazırda muxtar respublika üzrə mövcud 175 avtomat telefon stansiyasından 140-ı, 165 poçt bölməsindən 141-i yeni binalarda yerləşir. İstilik sistemi olmayan iş yerləri isə qışda standart elektrik qızdırıcıları, yaxud sobalarla qızdırılır. Bütün generator və akkumulyatorlara mərkəzləşmiş qaydada xidmət olunur. Hazırda bütün generator və akkumulyatorlar saz vəziyyətdədir.

Qeyd olunub ki, 2016-2017-ci ilin payız-qış mövsümündə də muxtar respublikanın poçt, telekommunikasiya, radio-televiziya yayımı və internet sahəsinin dayanıqlı və keyfiyyətli işi təmin ediləcəkdir.

Müşavirədə nazirliyin Telekommunikasiya şöbəsinin rəisi Vidadi Naibovun, Poçt rabitə şöbəsinin rəisi Şahin Məmmədovun, İqtisadiyyat və mühasibat uçotu şöbəsinin rəisi Vaqif Səfərovun, Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzinin rəis əvəzi Elşən Fətullayevin və "Azərkosmos" Ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin direktoru Məmmədqulu Quliyevin çıxışları olub.

"Ötən payız-qış mövsümündə muxtar respublikaya idxal olunan qaz və elektrik cihazlarına uyğunluq sertifikatının alınması üçün müraciət əsasında zəruri olan sənədlər, yəni alqı-satqı müqaviləsi, mənşə sertifikatı, xarici uyğunluq sertifikatı və Azərbaycan dilində istifadə təlimatı təqdim edildikdən sonra təhlükəsizlik sistemlərinin mövcudluğuna baxış keçirilərək 4 halda qaz cihazlarına uyğunluq sertifikatı verilib. Standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qaz cihazlarının muxtar respublikaya gətirilməsinə və istismarına yol verilməməsi üçün aidiyyəti qurumlarla birgə mütəmadi olaraq monitorinqlər keçirilib və maarifləndirmə işləri aparılıb. Monitorinqlər zamanı 77 ticarət obyektində kustar üsulla hazırlanan 91 ədəd qaz başlığı və 6 ədəd qaz sobası, xaricdən idxal olunmuş Azərbaycan dilində istifadə təlimatı, təhlükəsizlik qurğusu və keyfiyyətini təsdiqləyən uyğunluq sertifikatı olmayan 41 ədəd mətbəx üçün qaz pilətəsi və 6 ədəd qaz ocağı aşkar olunaraq satışdan çıxarılıb. Dövlət Gömrük Komitəsi və Fövqəladə Hallar Nazirliyi ilə birlikdə aparılan nəzarət tədbirləri çərçivəsində birbaşa bu avadanlıqların satışını həyata keçirən 109 ticarət obyektinə təhlükəsizlik qurğuları olmayan cihazları idxal etməmələri üçün yazılı bildirişlər verilib. 2015-ci ildən başlayaraq qaz sobalarında təzyiq nizamlayıcıdan əlavə ikiqat təhlükəsizlik sistemi tətbiq olunub. Payız-qış mövsümünə hazırlıq tədbirləri çərçivəsində təhlükə potensiallı obyektlərin istismarına dair qanunvericiliklə müəyyən edilmiş texniki təhlükəsizlik tələblərinə riayət olunmasına nəzarət etmək məqsədilə komitə tərəfindən muxtar respublika ərazisində 647 dövlət və özəl müəssisədə istismarda olan 701 qazanxanada qaz və su xətləri üzərində olan 2543 manometr və 922 termometr olmaqla, ümumilikdə, 3465 ölçmə vasitəsinin düzgün işləməsi, saz vəziyyətdə olması yoxlanılıb və yoxlama nişanı ilə nişanlanıb". Bu fikirləri Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində 2016-2017-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən iclasda komitə sədri Bəxtiyar İsmayılov mövzu ilə bağlı məruzəsində səsləndirib.

Məruzədə qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə bir sıra aidiyyəti qurumlarla yanaşı, Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə də müvafiq tapşırıqlar verilib. Bu tapşırıqların qısa zamanda və yüksək keyfiyyətlə icrası qarşıda duran əsas vəzifələrdəndir. Bundan öncəki payız-qış mövsümündə görülən işlər, əldə olunan müsbət nəticələr, yaradılan əlverişli şərait yeni mövsümdə də işləri günün tələbləri səviyyəsində qurmağa imkan verir.

Bildirilib ki, müşavirədə muxtar respublika rəhbəri tərəfindən hər il payız-qış mövsümünə əvvəlcədən hazırlıq işlərinin görülməsinin mühüm əhəmiyyətə malik olduğunun vurğulanması, aidiyyəti təşkilatlarla yanaşı, komitənin üzərinə bir sıra vəzifələr qoyulması məsuliyyəti daha da artırır. Bu vəzifələr sırasında standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya gətirilməsinə və istismarına yol verilməməsi, bu barədə istehlakçılar və sahibkarların əvvəlcədən məlumatlandırılması da var. Verilmiş tapşırıqların icrasını təmin etmək məqsədilə komitədə müvafiq icra qrupu yaradılıb və iş planı hazırlanıb. İş planına uyğun olaraq, payız-qış mövsümü üzrə nəzarət tədbirlərinin mütəmadi olaraq aid strukturlarla birgə ciddi qaydada həyata keçirilməsi təmin olunacaq və verilmiş tapşırıqlar vaxtında icra ediləcəkdir. Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsinin nümayəndələri ilə birlikdə standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya gətirilməsinə və istismarına yol verilməməsi üçün mütəmadi tədbirlər həyata keçiriləcəkdir. Adıçəkilən qurumların nümayəndələri ilə birlikdə bu qəbildən qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya gətirilməsinə və istismarına yol verilməməsi barədə istehlakçılar və sahibkarlar mütəmadi olaraq əvvəlcədən məlumatlandırılacaq, müvafiq bildirişlər təsərrüfat subyektlərinə təqdim olunacaqdır. Komitənin müvafiq şöbəsi tərəfindən noyabrın 15-dək dövlət müəssisələrinin və müraciət əsasında özəl müəssisələrin qazanxanalarında ölçmə vasitələrinin yoxlanılması həyata keçiriləcəkdir.



Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində keçirilən yığıncaqda müəssisənin direktoru Behruz Əzimov çıxış edərək bildirib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinə də bir sıra tapşırıqlar verilib. Verilən tapşırıqların icrasına uyğun olaraq, müəssisə və təşkilatları vaxtında yanacaqla təmin etmək məqsədilə Bakı şəhərindən İran İslam Respublikası ərazisindən keçməklə və Bakı-Gürcüstan-Türkiyə yolu ilə Naxçıvan Muxtar Respublikasına yanacaq daşınması üçün ağırtonnajlı avtomaşınlar cəlb edilib.



Cari ilin əvvəlindən 80649,5 ton dizel yanacağı, 19983,8 ton A-92 avtobenzini, 3514,3 ton bitum, 10943,4 ton mazut, 164,0 ton müxtəlif növ yağlar və 456, 3 ton maye qaz gətirilib. İlin sonunadək 29350 ton dizel yanacağı, 20061 ton A-92 avtobenzini, 16400 ton bitum və 1500 ton maye qaz gətiriləcək.

Qeyd olunub ki, yanacağın daşınması tələbata uyğun olaraq həyata keçirilir və yanacaq daşıyan avtomaşınların, müəssisədəki boru, nasos və digər avadanlıqların saz vəziyyətdə saxlanılması diqqət mərkəzindədir.

Vurğulanıb ki, 2016-cı ilin əvvəlində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bölgüsü əsasında və ayrılan vəsait hesabına payız-qış mövsümündə istilik sistemləri olmayan təhsil, səhiyyə və mədəniyyət müəssisələri yerlərdə yanacaqla təmin edilib və növbəti mərhələ üçün lazımi tədbirlər görülür, yanacaq ehtiyatı yaradılır. Hazırda müəssisənin anbarlarında 2370 ton dizel yanacağı, 1554 ton A-92 avtobenzini, 1097 ton mazut və 68,0 ton maye qaz ehtiyatı var.

Sonra məruzə ətrafında çıxışlar olub.

# "Daşınmaz əmlakın qeydiyyatı, torpaqlardan səmərəli istifadə və mühafizəsinin gücləndirilməsi" mövzusunda tədbir keçirilib

*Şərur Rayon İcra Hakimiyyətində keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov açıb.*

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə məruzə ilə çıxış edib. Bildirilib ki, əhalinin artım tempi, əkinəyararlı torpaq sahələrinin məhdudluğu, ərzaq məhsulları ilə etibarlı təminatın möhkəmləndirilməsi zərurəti torpaq münasibətlərinin düzgün şəkildə tənzimlənməsi, torpaq ehtiyatlarının dövlət idarəetməsi mexanizminin mütəmadi olaraq təkmilləşdirilməsini tələb edir. İmzalanmış fərman və sərəncamların, qəbul olunmuş dövlət proqramlarının icrası aqrar istehsalın inkişafında yeni mərhələ olmaqla yanaşı, bu sahənin inkişafında əvəzsiz rola malik olan torpaqdan düzgün və səmərəli istifadəni də günün tələbinə çevirib.

Qeyd olunub ki, muxtar respublikada mülkiyyət hüquqlarının tənzimlənməsində vahid idarəçiliyi təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 19 may tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak



və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi yaradılıb, 2015-ci il 16 iyun tarixli Fərmanı ilə "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"ın və "Torpaq sahəsinin planı və ölçüsü"nün təsviri təsdiq edilib.

Torpaqların elektron uçotunu aparmaq, elmi-texniki tərəqqinin inkişafı nəticəsində yaranmış müasir coğrafi informasiya sistemləri, geodeziya avadanlıq və cihazları tətbiq edilməklə torpaqların faktiki istifadə vəziyyəti ilə hüquqları təsdiq edən sənədlərdə olan uyğunsuzluqların aradan qaldırılmasına nail olmaq, torpaqlardan daha səmərəli istifadəni təmin etmək məqsədilə 2016-cı il 2 aprel tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Bu fərmanla "Naxçıvan Muxtar Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması Qaydaları" təsdiq edilib.

Fərmana əsasən, muxtar respublikada dövlət və bələdiyyə mülkiyyətində, habelə xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların elektron uçotunun aparılması və xəritələşdirilməsi yolu ilə "Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sistemi" yaradılacaq və rəqəmsal kadastr xəritəsi tərtib ediləcək.

Vurğulanıb ki, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri torpaq sahələrinin özbaşına tutulması, torpaq sahələrində qanunsuz tikinti aparılması, torpaqların kateqoriyalarının qanunvericiliyə riayət edilmədən dəyişdirilməsi, torpaqların istehsalat və məişət tullantıları, kimyəvi və radioaktiv maddələrlə, habelə çirkab suları ilə çirkləndirilməsi, torpağın vəziyyətinə zərərli təsir göstərən obyektlərin layihələşdirilməsi, tikilməsi və istismara verilməsi, mülkiyyətdə və istifadədə olan torpaqların hüdudlarının, mərz nişanlarının məhv edilməsi, torpaqların dövlət uçotundan, qeydiyyatından gizlədilməsi, kəmiyyət və keyfiyyətinə dair məlumatların təhrif edilməsi kimi hərəkətlərdən çəkinməlidirlər. Vətəndaşlar bilməlidirlər ki, qeyd olunan əməllərin törədilməsi torpaqlardan qanuni istifadə, ona sahiblik və onun barəsində sərəncam verməinin qaydalarını pozur, torpaqların təyinatının dəyişməsinə və qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

Tədbirdə komitənin Torpaq məsələləri şöbəsinin müdiri İntizar Həziyevin "Torpaqlardan qanunsuz istifadə hallarının aradan qaldırılması və mühafizəsi", baş məsləhətçi Tural Cəfərovun "Daşınmaz əmlakın kadastrı və qeydiyyatı ilə bağlı qanunvericiliyin tələbləri" mövzularında çıxışları olub. Bildirilib ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən, daşınmaz əmlaka sahiblik və istifadə hüququ onun barəsində əqdin notariat qaydasında təsdiq edildiyi andan (məhkəmə qərarı və ya digər qanuni qüvvəyə malik olan və barəsində şikayət verilə bilməyən qərar əsasında yaranan hüquq istisna olmaqla) əmələ gəlir. Daşınmaz əmlaka mülkiyyət hüququ isə onun verilməsinin daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan əldə edənə keçir. Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmamış daşınmaz əmlak barəsində müqavilələrin notariat qaydasında təsdiqlənməsinə yol verilmir və bu cür əmlak barəsində bağlanmış müqavilələr etibarsız sayılır. Daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının əmələ gəlməsi və başqasına keçməsi qeydiyyat orqanı tərəfindən verilən dövlət reyestrindən çıxarışla rəsmiləşdirilir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, onlara Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin hazırladığı bukletlər paylanılıb.

**Xəbərlər şöbəsi**

# Qayğı və uğurlar artır, yeni nailiyyətlər qazanılır

***13 ildir ki, muxtar respublikanın inzibati xəritəsində özünə yer alan Kəngərli rayonu ötən illərdə bu bölgəyə davamlı dövlət qayğısı hesabına müasir Azərbaycan rayonuna çevrilib. Kəngərli rayonunun bütün yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri aparılıb. Məktəb, səhiyyə, mədəniyyət müəssisələri və digər təşkilatlar üçün yeni binalar tikilərək istifadəyə verilib, yollar müasir standartlara uyğun olaraq yenidən qurulub. 2016-cı ilin ilk 7 ayında rayonda tikinti-quruculuq, abadlıq işləri davam etdirilib. Həyata keçirilən belə tədbirlər, ilk növbədə, insanların həyat şəraitinin yaxşılaşmasında özünü göstərir. Bu isə hər bir Kəngərli sakininin qurub-yaratmaq əzmini artırır.***



Rayon İcra Hakimiyyətinin Memarlıq və tikinti şöbəsinin müdiri Füzuli Rzayev deyir ki, cari ilin ilk 7 ayı ərzində tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 4,8 faiz artıb.

Bəhs olunan dövrdə rayon mərkəzində abadlıq işləri aparılıb, yol kənarlarında işıqlandırma sistemi quraşdırılıb. Yurdçu kəndində 270 şagird yerlik tam orta məktəb üçün yeni bina, kənd və xidmət mərkəzləri tikilərək istifadəyə verilib, kənd mərkəzində feldşer-mama məntəqəsi üçün otaqlar ayrılıb, müasir avadanlıqlarla təchiz olunub. Kənddaxili yollar yenidən qurulub. Bu yaşayış məntəqəsində yeni ATS quraşdırılıb və poçt şöbəsi yaradılıb. Quruculuq tədbirləri çərçivəsində 270 metr yeraltı optik xətt, 60 yeni abonentə telefon xətti çəkilib. Hazırda Qıvraq qəsəbə tam orta məktəbində və Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində təmir işləri, Qıvraq qəsəbəsində 222 yerlik uşaq bağçası üçün binanın inşası davam etdirilir.

Rayonda kənd təsərrüfatını inkişaf etdirmək üçün həyata keçirilən meliorativ tədbirlər cari ilin ötən dövründə də davam etdirilib. Belə ki, yaşıllıq və əkin sahələrinin suvarılması məqsədilə 8650 metr uzunluğunda yeni suvarma xətləri çəkilib, Qabıllı kəndində 1 subartezian quyusu istifadəyə verilib, Qıvraq qəsəbəsində suvarma məqsədilə 1 subartezian quyusu bərpa olunub. Qabıllı kəndində 900 metr, Şahtaxtı kəndində 2700 metr su xətti çəkilib, supaylayıcılar quraşdırılaraq kənd sakinlərinin istifadəsinə verilib. Bu tədbirlərin davamı kimi rayonun Böyükdüz və Xok kəndlərinin 107 hektar sahəsində qapalı suvarma şəbəkəsi qurulur.

Əhalinin elektrik enerjisindən səmərəli istifadəsini təmin etmək üçün yeni elektrik xətlərinin çəkilişi və bərpası davam etdirilib, 4,1 kilometr uzunluğunda elektrik verilişi xətləri yenilənib. Bir ədəd transformator əsaslı təmir edilib, 45 yeni mənzil elektrik enerjisi ilə təmin olunub.

Bəhs edilən dövrdə rayonun qəsəbə və kəndlərində 2397 abonentin qaz xəttinə və qazişlədici cihazlarına baxış keçirilib, 106 ədəd sayğac normal işləmədiyi üçün yenisi ilə əvəz edilib. 516 metr qaz xəttinin yeri dəyişdirilib, 420 metr dəmir boru polietilen boru ilə əvəz edilib, 597 metr yeni qaz xətti çəkilib, 89 yeni abonent təbii qazla təmin olunub.

“Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 4 iyul tarixli Sərəncamına əsasən, Naxçıvan memarlığının nadir incilərindən sayılan Qarabağlar Türbə Kompleksində bərpa işlərinin elmi və tarixi əsaslarla aparılmasına başlanılıb.

* * *

Rayon İcra Hakimiyyətinin əməkdaşı Rəhim Abtalıbov deyir ki, muxtar respublikamızda 2016-cı ilin “Nizam-intizamın daha da möhkəmləndirilməsi ili” elan olunması bu bölgədə də məsuliyyət hissini artırıb, qəbul edilmiş dövlət proqramlarının vaxtında icra olunması, nəzərdə tutulmuş tədbirlərin, infrastruktur layihələrinin reallaşdırılması, sosial-iqtisadi həyatın bütün istiqamətləri üzrə müsbət dinamikanın qorunub saxlanılması bu dövrdə də davam etdirilib.

Bölgədə kənd təsərrüfatının inkişafı üstün istiqamət verilən sahələrdən biridir. Aqrar sahədə həyata keçirilən tədbirlər öz bəhrəsini verib, 2016-cı ilin məhsulu üçün 6664 hektar sahədə əkin aparılıb. Strateji əhəmiyyətə malik taxılçılıq öz üstün mövqeyini qoruyub saxlayıb. Cari ilin məhsulu üçün əkilmiş 3965 hektar sahədə taxıl biçini uğurla başa çatıb. Orta məhsuldarlıq 29,2 sentner olub.

Muxtar respublikada ekoloji cəhətdən saf meyvə-tərəvəz məhsullarının yetişdirilməsi üçün əlverişli şərait vardır. “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” rayon sakinlərinin bu sahələrdə xeyli uğur qazanmasına imkan verib.

Rayonda istehsal olunan meyvə-tərəvəz məhsullarının rahat şəkildə satışını təmin etmək üçün məhsul istehsalçılarının rayon mərkəzində və Naxçıvan şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında iştirakları təmin olunub.

Bitkiçiliklə yanaşı, kənd təsərrüfatının digər gəlirli sahəsi olan heyvandarlıq da inkişaf etdirilib, heyvanların cins tərkibini yaxşılaşdırmaq üçün tədbirlər görülüb.

Həyata keçirilmiş məqsədyönlü tədbirlər kənd təsərrüfatının inkişafına təkan verib, ümumilikdə, 13 milyon 338 min manata yaxın məhsul istehsal olunub ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,6 faiz çoxdur.

Ekoloji tarazlığın qorunması məsələləri də diqqət mərkəzində saxlanılıb, 14,8 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılıb, 11 min 700 ağac və gül kolu əkilib.

* * *

Rayonun iqtisadi inkişafında özəl sektorun mühüm rolu vardır. Sahibkarlığa göstərilən dövlət qayğısının nəticəsidir ki, cari ilin ötən dövrü ərzində fəaliyyətin bu növü ilə məşğul olmaq istəyən daha 2 hüquqi və 84 fiziki şəxs qeydiyyata alınıb. Bu gün rayonda 24 sahibkarlıq subyekti fəaliyyət göstərir. Rayonun Qıvraq qəsəbəsində, Qarabağlar, Xok, Şahtaxtı, Qabıllı, Çalxanqala, Yurdçu, Böyükdüz kəndlərində yaradılmış həmin sahibkarlıq subyektlərində mebel, qapı-pəncərə, kərpic, çörək, tərəvəz məhsulları, sement və daş məhsulları istehsal olunur.

Sahibkarlığın inkişafı yeni istehsal və xidmət sahələrinin fəaliyyətə başlamasına, iş yerlərinin açılmasına, əhalinin maddi rifahının yaxşılaşmasına təsir göstərir. “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi işaxtaran vətəndaşların səmərəli məşğulluğunun təmin olunması, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının tələbinə uyğun olaraq peşə hazırlığının təşkili üçün geniş imkanlar açıb.

Görülmüş işlər nəticəsində 2016-cı ilin ilk 6 ayı ərzində 108 nəfər işaxtaran vətəndaş qeydiyyata alınıb, 103 nəfər daimi işlə təmin edilib. Dörd nəfər müxtəlif peşə təlim kurslarına göndərilib. İki əmək yarmarkası keçirilib, 50 işaxtaran vətəndaş daimi işlə təmin edilib.

Maliyyə sabitliyinin və ümumi iqtisadi inkişafın təmin olunmasında nağdsız hesablaşmaların həcminin artırılması, elektron ödəniş sistemlərinin geniş tətbiqi mühüm əhəmiyyətə malikdir. Bu baxımdan 2016-cı il martın 2-də təsdiq olunmuş “2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”da nəzərdə tutulan tədbirlərin icrası maliyyə vəsaitləri dövriyyəsinin sürətlənməsinə, nağd pul kütləsinin daşınması, saxlanması və təsərrüfat əməliyyatları xərclərinin azalmasına səbəb olub.

Ümumiyyətlə, bu tədbirlərin davamı kimi cari ilin iyul ayının əvvəlinədək rayonun ticarət və xidmət müəssisələrində 55 POS-terminaldan istifadə edilib ki, onlardan 8-i cari ilin ötən dövründə quraşdırılıb.

* * *

Rayonda 12 ümumtəhsil məktəbi, 4 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Təhsil ocaqlarında 289 kompüter və 38 elektron lövhədən istifadə edilir. Pedaqoji kollektivlər vətənpərvər vətəndaşlar tərbiyə etmək üçün yaradılmış şəraitdən səmərəli istifadə etməyə səy göstərirlər. Tarixi, əlamətdar, bayram günlərində müxtəlif tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu da şagirdlərin intellektual səviyyəsinin yüksəldilməsinə öz müsbət təsirini göstərir.

Ötən dərs ilində orta məktəblərdən 213 nəfər məzun olub. Onlardan 146-sı ali, 18 nəfəri orta ixtisas məktəblərinə qəbul olunmaq üçün sənəd təqdim edib, 86-sı ali, 18 nəfəri isə orta ixtisas məktəblərinin tələbəsi adına layiq görülüb. Rayonun pedaqoji kollektivləri qazanılan uğurları son hədd hesab etmirlər. Gələcəkdə daha yüksək uğurlara nail olmaq əzmi ilə çalışırlar.

Rayonun mədəniyyət işçiləri də göstərilən qayğıya əməli işlə cavab vermək əzmi ilə bütün imkanlardan istifadə etməyə səy göstərirlər. Bölgə sakinlərinin asudə vaxtlarının səmərəli təşkil olunması üçün müxtəlif tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılır. Rayon mədəniyyət evinin “Kəngər” instrumental ansamblı, uşaqlardan və böyüklərdən ibarət yallı kollektivləri, qızlardan ibarət “Gülüm hey” folklor qrupu rayonun mədəni həyatında fəal iştirak edirlər.

* * *

Qarşıdan payız-qış mövsümü gəlir. Bununla bağlı rayon İcra Hakimiyyətində müşavirə keçirilib. Müşavirədə rayonun aidiyyəti təşkilatları qarşısında müəyyən vəzifələr qoyulub. Həmin vəzifələrin böyük bir qismi artıq öz həllini tapıb. Rayonun energetika, qaz, yol təsərrüfatları, rabitəçiləri qarşıdan gələn payız-qış mövsümünü uğurla başa vurmaq üçün bir sıra tədbirlər həyata keçiriblər. Qaz, elektrik xətlərində əsaslı və cari təmir işləri aparılıb, istismar müddəti başa çatan avadanlıqlar yeniləri ilə əvəz olunub. Texnikaların işlək vəziyyətə gətirilməsinə diqqət artırılıb. Təbii qazla qızdırılacaq binalara baxış keçirilib. Təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin qış mövsümündə heç bir problemlə üzləşməmələri üçün məqsədyönlü tədbirlər görülüb. Maye qaz və neft məhsullarından istifadə edilən müəssisələrdə lazımi yanacaq ehtiyatının yaradılması üçün həyata keçirilən tədbirlər davam etdirilir.

* * *

*Kəngərli rayonu 2016-cı ilin ötən dövründə diqqətəlayiq uğurlar qazanıb. Bu uğurların qazanılmasında, təbii ki, başlıca amil hərtərəfli dövlət qayğısının dinamik xarakter almasıdır. Belə qayğı olan yerdə yüksək uğurlara nail olmaq heç də çətin deyil. Bölgə sakinləri “Nizam-intizamın daha da möhkəmləndirilməsi ili”ni müvəffəqiyyətlə başa vurmaq üçün yaradılan imkanlardan səmərəli istifadə edir, muxtar respublikanın iqtisadi qüdrətinin artmasına töhfələrini verirlər.*

**Muxtar MƏMMƏDOV**

*Naxçıvan məhsulları xarici bazarda*

## “Ləzzət Biskvit və Şokolad Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsulları İran və Gürcüstan bazarlarına çıxarılıb



***2011-ci ildən vafli istehsalı ilə fəaliyyətə başlayan müəssisədə 2013-cü ildə peçenye istehsalı sahəsi yaradılıb. Burada istehsal olunan məhsulların xammal ehtiyatı, əsasən, daxili imkanlar hesabına ödənilir ki, bu da aqrar sektorun inkişafına, eləcə də torpaq mülkiyyətçilərinin alıcı problemi ilə üzləşməməsinə öz müsbət təsirini göstərir. Sahibkarlıq fəaliyyətinin inkişafı əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, daxili bazarın keyfiyyətli yerli məhsullarla təmin olunmasına əlverişli şərait yaratmaqla bərabər, xaricdən idxal edilən, mənşəyi məlum olmayan, keyfiyyətsiz məhsulların muxtar respublikamıza idxal olunmasının da qarşısını alır.***

Burada fəaliyyət göstərən istehsal sahələrində Türkiyənin “Pek makina”, “Forma makina LTD”, “Ar-Can”, “Alper” və “Makrev” firmalarının istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Gündəlik istehsal gücü 2,4 ton olan müəssisədə vanilli, çiyələkli, bananlı, kakaolu, südlü tərkibdə “Tıq-tıq xanım”, “Şokolay” adları ilə şokoladlı olmaqla, 25 çeşiddə vafli, “Naxçıvan”, “Məktəbli”, “Çay vaxtı”, “Mömünə xatın”, “Yubiley” və sair adlarda 16 çeşiddə istehsal edilən peçenye və biskvit 35 qramdan 5 kiloqramadək nəfis tərtibatla bəzədilmiş taralarda qablaşdırılır. Hazır məhsulun üzərində istehsal tarixi, saxlanma şəraiti və istifadə müddəti göstərilir ki, bu da qida məhsulları istehsalında mühüm amildir. Həmçinin müəssisədə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlarla təmin olunmuş laboratoriya fəaliyyət göstərir, xammal və hazır məhsulların keyfiyyətinə ciddi nəzarət olunur. Hazır məhsullar Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən qeydiyyata alınmış “Nati” əmtəə nişanı ilə müəssisənin balansında olan maşınlarla Naxçıvan şəhərində və ayrı-ayrı yaşayış məntəqələrində fəaliyyət göstərən ticarət obyektlərinə paylanılır.

Sahibkarlığın, sağlam rəqabətin və əmtəə bazarının inkişafı, yeni iş yerlərinin yaradılması muxtar respublikada qarşıya qoyulan iqtisadi siyasətin mühüm tərkib hissəsidir. Naxçıvan şəhərində biznes forumların, işgüzar görüş və konfransların keçirilməsini, həmçinin yerli məhsulların tanıdılması və satışının təşkilini təmin etmək məqsədilə yaradılmış Naxçıvan Biznes Mərkəzinin xidmətlərindən səmərəli istifadə edilir. İstehsal edilən yüksəkkeyfiyyətli yerli məhsulların ölkəmizin digər regionlarında satışa çıxarılmasına, xarici ölkələrə ixrac olunmasına da əlverişli şərait yaradılır. Ölkəmizdə və ya xarici ölkələrdə keçirilən biznes forumlarda, sərgilərdə sahibkarların iştirakı təmin olunur, ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən sahibkarların təcrübəsindən bəhrələnilir. Təbii ki, bu, bir tərəfdən əlaqələrin daha da genişləndirilməsinə, digər tərəfdən məhsulların Azərbaycanın digər regionlarında və xarici ölkələrdə alıcı tapmasına imkan verir. Bəli, yaradılan şəraitdən “Ləzzət Biskvit və Şokolad Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyəti də bəhrələnib. Bir vaxtlar Rusiya və Ukraynadan peçenye və vafli gözləyən Naxçıvan indi “Nati” tanıtım nişanı ilə Naxçıvan məhsullarını nəinki ölkəmizin digər regionlarında satışa çıxarır, həm də İran və Gürcüstan bazarına ixrac edir.

**Kərəm HƏSƏNOV**

Gəncliyimiz, gələcəyimiz

## Yüksək bal toplayan məzunlar:

## “Oxumaqla, çalışmaqla hər şeyə nail olmaq mümkündür”

***Naxçıvan Muxtar Respublikasında təhsil sisteminin dövrün tələblərinə uyğun qurulması, formalaşması, dinamik inkişafı böyük uğurlar əldə etməyimizə şərait yaradır. Təhsilimizin məzmunca təkmilləşdirilməsi, müasir dünya təcrübəsi və milli ənənələr əsasında inkişaf etdirilməsi, ayrı-ayrı sahələr və fənlər üzrə yeni standartların tətbiq olunması ilə bağlı müsbət nəticələr qazanılır.***

Son illər muxtar respublikada 200-dən artıq təhsil müəssisəsinin tikilməsi və ya əsaslı şəkildə yenidən qurulması, məktəblərin ən müasir tədris avadanlıqları və informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunması təhsilin keyfiyyətcə daha da yüksəlməsinə səbəb olub. Yəni bu gün şagirdlərin ən yüksək səviyyədə təhsil almaları, biliklərə yiyələnmələri üçün hər cür şərait və imkan vardır. Məhz bu səbəbdən muxtar respublikada təhsil sahəsində uğurlar ildən-ilə daha da artır. 2016-cı ilin məzunlarından ali təhsil müəssisələrinə qəbul olanların sayının artması da bunu sübut edir.

Murad Yadigar və Təbriz Məmmədli də bu il ailələrinə sevinc bəxş edən, müəllimlərini qürurlandıran məzunlardandır. İmtahan cavabları məlum olana qədər onlar yaşıdlarından o qədər də fərqlənmirdilər. Bu il ali məktəblərə keçirilən qəbul imtahanlarının nəticələrinin açıqlanmasından sonra Muradın və Təbrizin göstərdikləri nəticəyə görə bir çoxu onları tanıdı.



*Murad Yadigar* II ixtisas qrupu üzrə keçirilən qəbul imtahanında 682 bal toplayaraq “ADA” Universitetinin Biznesin idarə edilməsi fakültəsinə qəbul olunub. Təbriz Məmmədli isə IV qrup üzrə imtahan verib və 668 bal toplayaraq Azərbaycan Tibb Universitetinin Müalicə işi ixtisasında oxumaq hüququ qazanıb. Hər ikisi əldə etdikləri uğurlu nəticəni təhsil aldıqları tam orta məktəblərdə yaradılan yüksək şəraitlə və müəllimlərinin zəhməti, diqqəti ilə izah edirlər.

Murad Yadigar Şərur rayonundakı Mahmudkənddə dünyaya göz açsa da Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbdə təhsil alıb, həmin məktəbdən məzun olub. O deyir:

– Əldə etdiyim nəticəyə görə bizim yaxşı təhsil almağımız üçün şərait yaradanlara borcluyam. Mənim 682 bal toplamağımda müəllimlərimin də rolu böyük olub. Onlar həmişə mənə dəstək veriblər. Valideynlərim hər zaman mənə güvəndiklərini deyirdilər. Bu da məni daha da ruhlandırırdı.

Sevinirəm ki, muxtar respublika üzrə ən yüksək nəticə göstərənlər sırasında mən də varam. Bu həm də mənim 11 il ərzində çəkdiyim zəhmətin bəhrəsidir. Çünki ötən illər ərzində tələbə adını qazanmaq arzusu ilə yaşamışam. Dərslərimi həmişə diqqətlə oxumuşam, müəllimlərimin verdiyi tapşırıqları yerinə yetirməyə çalışmışam. Buna görə də, təvazökarlıqdan uzaq olsa da, deyə bilərəm ki, yüksək bal toplayacağıma əmin idim.

Mənə belə gəlir ki, hər kəs uşaqlıqdan qarşısına bir məqsəd qoymalı, ona çatmaq üçün çalışmalıdır. Əks halda, gələcəkdə cəmiyyətdə layiqli vətəndaş və mütəxəssis ola bilməzsən. Mən də həmişə düşünmüşəm ki, yaxşı mütəxəssis olmaq istəyirəmsə, qarşıma məqsəd qoymalıyam. Belə də oldu. Məktəbdən evə gələn kimi dərslərimlə məşğul olmağa, bəzilərini isə təkrarlamağa başlayırdım. Bəzən gecələr də yatmaq istəmirdim. Çalışırdım ki, hər gün daha çox oxuyum. Və nəhayət, zəhmətimin bəhrəsini gördüm. Buna görə çox sevincliyəm.



Gələcəyin tibb işçisi, həkimi olacaq *Təbriz Məmmədli* isə Naxçıvan şəhər Cəmşid Naxçıvanski adına 11 nömrəli tam orta məktəbin məzunudur. Təbriz orta məktəbi yüksək nəticələrlə bitirib, 11-ci sinfi gümüş medalla başa vurub. O, 2012-ci ildə Ankara şəhərində keçirilən gənclərarası VIII Beynəlxalq Layihə Olimpiadasında iştirak edərək bürünc medalla təltif olunub. 2015-ci ilin sentyabr ayında Bakıda ingilis dili üzrə beynəlxalq “İELTS” imtahanında iştirak edib və 6,5 bal nəticə ilə beynəlxalq sertifikat alıb. Qəbul imtahanında 668 bal toplaması isə Təbrizin növbəti uğurudur. O, uğurlarının səbəbini belə izah edir:

– Bu gün təhsildə uğurların əldə edilməsində və bunun təməlində, sözsüz ki, sağlam müəllim-şagird münasibətləri xüsusi rol oynayır. Müəllimlərin yüksək intellekt və dünyagörüşə sahib olması ilə yanaşı, həm də onların şagirdlərdə fənnə maraq və həvəs yaratması da əsas şərtlərdəndir. Mənim müəllimlərim də məhz belə olublar.

Müəllimlər bizim təkcə təhsilimizə deyil, eyni zamanda təlim-tərbiyəmizə də diqqət yetirirlər. Bizi narahat edən mövzular olanda dinləyib köməklərini əsirgəmirdilər. Onlar bizə deyirdilər ki, uğura gedən yolda çətinliklərin, eniş-yoxuşların olması da təbiidir. Nailiyyət əldə etmək üçün çalışmaq, zəhmət çəkmək, zərərli vərdişlərdən uzaq durmaq lazımdır. Yaşıdlarım mənə harasa getmək barədə təklif edəndə mən dərslərə hazırlaşdığımı deyərək imtina edirdim.

Biz də digər yaşıdlarımız kimiyik. Düzdür, bizə yüksək bal topladığımıza görə çoxları heyranlıq və həsədlə baxırlar. Hətta sizin redaksiyaya gələndə qapıdakı gözətçi bizi görüb yanındakına “yüksək bal toplayan uşaqlardır”, – dedi. Heç nə deməyib gülümsədik. Cəmiyyətdə seçilmək, yaxşı mənada tanınmaq gözəl duyğudur. Bu, insana sevinc bəxş edir. Biz məzunların uğurları isə valideynlərimizi, müəllimlərimizi daha çox sevindirir.

Təbriz Məmmədli deyir ki, mən universitetdə də yüksək nəticələr göstərmək üçün çalışacağam. Çünki insanlara şəfa bəxş edən yaxşı həkim olmaq üçün tibb elminin sirlərinə dərindən yiyələnmək lazımdır. Yəni bundan sonra daha çox çalışmaq, oxumaq lazım gələcək. Ona görə ki, müasir tibb elminin sirlərini öyrənmək o qədər də asan deyil. Ancaq öyrənmək həvəsi, həkim olmaq arzusu mənim daha yaxşı təhsil almağıma imkan verəcək.

**Rauf ƏLİYEV**

## Naftalan nefti və Şorsu palçığı ilə müalicə xəstələrə şəfa verir

***Reabilitasiya şöbəsi Naxçıvan Muxtar Respublika Xəstəxanasında yeni yaradılmış sahələrdən biridir. Şöbədə bütün növ elektroterapiya, lokal traksiya, lazer terapiya, limfodrenaj, maqnitoterapiya, hidroterapiya, ozonoterapiya, hidrokolonoterapiya üsulları ilə müalicələr aparılır.***





Naftalan nefti ilə müalicə bölməsi bu günlər ən çox üz tutulan sahələrdən biridir. Əsaslı təmir və yenidənqurma işlərindən sonra 300 çarpayılıq xəstəxanada Naftalan nefti ilə müalicə bölməsi də yenidən qurulub. Məlum olduğu kimi, bu səhiyyə müəssisəsinə xammal Naftalan şəhərində fəaliyyət göstərən sanatoriyatipli müalicə ocaqlarından gətirilir. Həmin müalicə-istirahət mərkəzləri insanların sağlamlığında mühüm rol oynayır. Təbii ki, bəzi insanların Naftalan nefti ilə müalicə olunmağa getmək imkanlarının məhdudluğundan 2004-cü ildə Naxçıvan Muxtar Respublika Xəstəxanasında Naftalan nefti ilə müalicə şöbəsi fəaliyyətə başlayıb. Müasir tibbi avadanlıqlar quraşdırılmış şöbədə hər ay onlarla xəstə müalicə olunur, sağlamlığına qovuşur. Naxçıvan Muxtar Respublika Xəstəxanası Reabilitasiya şöbəsinin müdiri, həkim-fizioterapevt Fazil Fərzəliyev söhbət zamanı fizioterapiya, hidroterapiya və Naftalan nefti ilə müalicə bölməsinin fəaliyyəti, aparılan müalicə formaları barədə ətraflı məlumat verdi. Bildirdi ki, Azərbaycan nadir yeraltı və yerüstü sərvətlərlə, neft və qaz ehtiyatları ilə zəngin bir ölkədir. Bunlardan biri də Naftalan neftidir. Qara-qonur rəngli Naftalan nefti müalicəvi xüsusiyyətlərinə görə dünyada məşhurdur. Naftalan nefti fiziki-kimyəvi xassəsinə görə başqa neftlərdən fərqlənir. Tərkibində xeyli miqdarda qətran (14 faiz) olması və su ilə möhkəm emulsiya əmələ gətirməsi Naftalan neftinin üstünlüklərindən biridir.

Hələ qədimdən indiyə kimi saysız-hesabsız xəstə bu neftin şəfaverici keyfiyyətindən bəhrələnib. Naftalan nefti güclü ağrıkəsici, iltihab əleyhinə, damargenişləndirici, hormonabənzər, antiseptik təsirlərə malikdir. Naftalan vannasının temperaturu 37-38C$^{0}$-dir. Xəstənin qalma müddəti 10 dəqiqə, müalicə kursu 10-12 gündür. 70-dən çox xəstəliyin müalicəsində tətbiq olunan Naftalan nefti vannalara doldurulur. Xəstələr neft vannası qəbul edərək müalicə olunurlar. Sümük-oynaq, sinir-əzələ, dəri, ginekoloji, uroloji xəstəliklərə tutulanlar Naftalan müalicəsini qəbul edirlər. Bu xəstəliklərin siyahısını uzatmaq da olar. Naftalan nefti insanları ağrılardan xilas edir, dəri xəstəliklərini sağaldır, əsəbləri sakitləşdirir və dərini yumşaldır. Xəstəxananın Naftalan bölməsində gigiyenik qaydalara ciddi əməl olunması üçün lazımi şərait yaradılıb. Qeyd edək ki, şöbədə təbii üsullarla – dərman bitkiləri ilə də müalicə aparılır. Burada Naxçıvan ərazisində bitən müxtəlif müalicəvi otlardan geniş istifadə edilir. Təbii müalicə üsulunun tətbiqi insan orqanizminin digər üzvlərinə heç bir zərər vermədən ehtiyac olan müalicəni həyata keçirməyə imkan verir. Blokada şəraitində yaşayan Naxçıvana ölkənin digər ucqar regionundan müalicəvi Naftalan neftinin gətirilməsi xeyli vaxt və vəsait tələb edir. Ancaq insan amilinə qayğı belə çətinliklərə üstün gəlib.

Həkim onu da bildirdi ki, bütün bu müalicəvi xüsusiyyətlərinə baxmayaraq, Naftalan neftindən düzgün istifadə etmədikdə zərər görmək olar. Çünki bəzi ciddi xəstəliyi – oynaqların kəskin xəstəlikləri, mərkəzi sinir sisteminin üzvi xəstəlikləri, kəskin ginekoloji xəstəliklər, hər hansı üzvün vərəmi, gərginlik stenokardiyası, kəskin böyrək və qaraciyər xəstəlikləri olanlar üçün bu vannaların qəbulu əks göstəricidir. Odur ki tam, dəqiq həkim müayinəsindən keçmədən Naftalan vannası qəbul etmək məsləhət görülmür.

“Naxçıvan Muxtar Respublikasının ərazisində 200-dən çox mineral su bulağı, şəfa qaynaqları vardır. Darıdağ, Sirab, Nəhəcir, Badamlı, Əshabi-Kəhf, Cəhri, Qahab, Dəstə və başqa yataqlar öz xüsusiyyətləri ilə fərqlənir. Naxçıvan- Sədərək magistralının birinci kilometrində yerləşən Şorsu da belə müalicə qaynaqlarından biridir”, – deyən Fazil Fərzəliyev diqqətimizə çatdırdı ki, bu növ palçıq qrupu son dərəcə balneoloji hidromineral ehtiyatdır. İnsan orqanizminə müalicəvi təsir edən Şorsu palçığından əvvəllər kortəbii şəkildə müalicə məqsədilə istifadə edilib. İndi isə fizioterapiyanın bir metodu kimi periferik sinir sisteminin, dayaq-hərəkət sisteminin, damar, ginekoloji, bir sıra dəri xəstəliklərinin və yanıqlardan sonrakı fəsadların müalicəsində istifadə olunur.

Xəstəxananın Reabilitasiya şöbəsinin elektroterapiya və medikal fitnes bölməsi müasir cihazlarla təchiz olunub. Fizioterapiya ilə müalicənin üstünlükləri ondan ibarətdir ki, dərman xəstəliyi və allergiya törətmir, müalicə imkanlarını genişləndirir, müalicə müddətini qısaldır.

Xəstəxanada ozonoterapiya yeni sahələrdən biridir. Ozonoterapiya zamanı toxumaların oksigen təminatı artır, mikrosirkulyasiya yaxşılaşır, yeni damar və kapilyarlar qan dövranına qoşulur, qanın reoloji xüsusiyyətləri yaxşılaşır, qanyaranma sürətlənir, orqanizmin immun sistemi aktivləşir. Bütün bunlardan əlavə, ozonun bakterisid, virusid və fungisid təsirləri var. Antiseptiklərdən fərqli olaraq ozon toxumalara qıcıqlandırıcı və dağıdıcı təsir göstərmir. Bu da orqanizmin özünün antioksidant sistemlərə malik olması ilə əlaqədardır.

Lazer terapiyası isə lazer şüalarının müalicə-profilaktika məqsədi ilə istifadə olunmasıdır. Orqanizm toxumaları tərəfindən lazer şüaları dərin qatlara yayılaraq bioloji toxumaların molekulyar kompleksini aktivləşdirir. Lazer terapiyanın effekti özünü fermentlərin aktivləşməsi ilə büruzə verir. Lazer terapiyanı bilavasitə proses nahiyəsinə yox, refleksogen zonalara təsir etməklə aparmaq olar.

Həkim onu da vurğuladı ki, maqnitoterapiya sabit, aşağı tezlikli dəyişən və sabit impulslu maqnit sahəsinin müalicə və profilaktika məqsədilə istifadə olunmasıdır. Uzunmüddətli sabit maqnit sahəsinin təsiri nəticəsində membranların keçiriciliyinin dəyişməsi hüceyrələrin plazmolemmasını sabitləşdirir. Dəyişən aşağı tezlikli impuls maqnit terapiyası toxumalarda burulğanlı elektrik sahəsi induksiyalaşdıraraq yüklü hissəciklərin dairəvi hərəkətini törədir.

Termoterapiyada qızdırılan parafin, istilik yastıqları, elektrik lampalarından istifadə olunmaqla toxumalara istilik verilir. Termoterapiya toxumalarda mikrosirkulyasiyanı və maddələr mübadiləsini yaxşılaşdırır, iltihab əleyhinə təsir göstərir.

Parafinterapiya tənəffüs sisteminin kəskin və xroniki xəstəlikləri, 1-ci, 2-ci dərəcəli revmatizm, həzm sistemi, dayaq-hərəkət sistemi xəstəlikləri və digər hallarda həyata keçirilir.

Reabilitasiya şöbəsində digər müalicə üsulları da uğurla tətbiq olunur. Şöbə ixtisaslı həkim və orta tibb işçiləri ilə təmin edilib, onların peşə bacarıqlarının yüksəldilməsi daim davam etdirilir. Təcrübəli, gülərüz və mehriban kollektiv insanların sağlamlığının bərpası və qorunması üçün əlindən gələni əsirgəmir.

**Hüseyn ƏSGƏROV**

### *İtmişdir*

Naxçıvan şəhərinin Tumbul kənd sakini İbrahimov Namiq Arif oğlunun adına olan JN-310A inventar nömrəli, 10307028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 657